# Radiotezlikli identifikasiya texnologiyaları (RFİD)

## Heyvanları qoruyaraq






Heyvanların izlənilməsində identifikasiyadan istifadə etmək artıq yenilik deyil. Bu gün bir çox ölkələrdə alimlər nadir heyvanların yerdəyişməsini və yaşayış məskənlərini tədqiq etmək üçün radiotezlikli identifikasiyadan istifadə edirlər. Misal üçün, Norveç qütb institutu 1000-ə yaxın qütb ayılarını izləyir, Amazonka meşələrində isə vəhşi qabanların, yaquarların, Ara tutuquşularının yaşayış sahəsini təhlil etmək üçün identifikasiyanın köməyiylə məlumat toplanılır. Belə ki, qulağına radionişan yapışdırılmış heyvan izləmə cihazının yanından keçəndə radionişanın identifikasiya nömrəsi və heyvanın keçid vaxtı qeyd edilir. Və bu da daha ətraflı və səlist təhlilin ərsəyə gəlməsinə şərait yaradır.